Azadlıq Radiosu

AZƏRBAYCAN XƏBƏRLƏRİ

# Putin Əliyevə zəng vurub

indicə




V.Putin və İ.Əliyev

Sentyabrın 7-də Rusiya prezidenti **Vladimir Putin** Azərbaycan prezidenti **İlham Əliyevə** zəng edib.

Azərbaycan Prezidentinin Mətbuat Xidmətinin məlumatına görə, telefon danışığı zamanı dövlət başçıları iqtisadi-ticari və humanitar əməkdaşlığın bir sıra aktual məsələlərini müzakirə ediblər.

İkitərəfli əlaqələrin müxtəlif səviyyələrdə intensivləşdirilməsi barədə razılıq əldə olunub.

4 il əvvəl, fevralın 22-də Moskvada Azərbaycan və Rusiya dövlət başçıları iki ölkə arasında "Müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə" imzalayıblar. Sənəddə

həm siyasi, həm iqtisadi, həm də ticari sahələrdə əməkdaşlığın daha da gücləndirilməsinin vacibliyi əks edilib.

O vaxtdan iki ölkə arasında ticarət əlaqələrində inkişaf var. Amma, bununla belə, müəyyən gərginliklər də müşahidə edilib. Lakin sonradan tərəflər anlaşılmazlıqların aradan qaldırıldığını bəyan ediblər. Xüsusilə bu baxımdan 2024-cü il dekabrın 25-də Bakıdan Qroznıya uçan "Embraer 190" təyyarəsinin Aktau şəhəri yaxınlığında qəzaya uğraması və nəticədə 38 nəfərin həlak olması diqqət çəkmişdi. Azərbaycan rəsmiləri təyyarəyə Rusiya hava məkanında müdaxilə olunduğunu və onun kursdan çıxaraq Qazaxıstan istiqamətinə yönəldiyini vurğulayaraq hadisəyə görə Rusiyanın məsuliyyət daşıdığını bildirirdilər. Bakı rəsmi Moskvadan qəzaya görə məsuliyyəti etiraf etməyi, günahkarların cəzalandırılmasını və kompensasiya ödənilməsini tələb edirdi. Rusiya tərəfi ilkin mərhələdə üzrxahlıq etsə də, digər tələblər uzun müddət yerinə yetirilməmiş qalırdı. Amma bu ilin aprelində AZAL-ın təyyarəsinin qəzası ilə bağlı Azərbaycan və Rusiya arasında razılıq əldə olunduğu açıqlandı.

Bu arada həm Rusiyada Azərbaycan diasporunun təmsilçilərindən, həm də Bakıda Rusiya vətəndaşlarından müxtəlif ittihamlarla həbs edilənlər olmuşdu. Lakin liderlərin birbaşa təmaslarından sonra Azərbaycan tutulan Rusiya vətəndaşlarından "Sputnik-Azərbaycan"ın əməkdaşları sərbəst buraxmışdı.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur